BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2014*

**UOT 94 «16/18»**

# SSRİ RƏHBƏRLİYİNİN ERMƏNİPƏRƏST SİYASƏTİ: HƏDƏFLƏR VƏ NƏTİCƏLƏR

**İSMAYIL MUSA**
***Bakı Dövlət Universiteti***
***İsmayıl_musa@rambler.ru***

*Məqalədə SSRİ rəhbərliyinin ermənipərəst siyasətinin aparıcı yönləri ilə bağlı bəzi mühüm məqamlar təhlil edilir. Başlıca diqqət həmin siyasətin Azərbaycana yaratdığı problemlərin və verdiyi nəticələrin, ələlxüsus da, ölkəmizin ərazi-torpaq itkilərinin araşdırılmasına yönəldilir. Habelə Qərbi Azərbaycanın (Ermənistan SSR-in) türk-müsəlman əhalisinin deportasiyası planı və prosesi nəzərdən keçirilir. Araşdırmada Sovet diplomatiyasının ermənilərin Urmiya ətrafında «kiçik muxtariyyət» əldə etmək planlarının gerçəkləşdirilməsinə dəstəyi və s. məsələlər də əhatə olunmuşdur.*

**Açar sözlər:** sovet, erməni, ərazi itkiləri, deportasiya, münaqişə

Bilavasitə SSRİ-də türk-erməni münasibətləri və torpaqlarımızın yeni-yeni qəsbləri, xalqımıza qarşı aparılan «etnik təmizləmə» - soyqırım siyasəti problemlərinin təhlilinə keçməzdən öncə «erməni məsələsi»nin o dövrkü durumunun qısaca nəzərdən keçirilməsinə ehtiyac vardır. Bu baxımdan məşhur Lozanna konfransı (1922-1923) ərəfəsi, dövrü və ondan sonrakı ilk dönəmlərdə qabardılan «erməni məsələsi»ni müəyyən mənada SSRİ-dəki türk-erməni münasibətlərinin axarı üçün daha bir çıxış nöqtəsi saymaq olar.

Atatürkün «erməni məsələsi» adlandırılan bu məsələ özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır» müddəası [1] ilə əsla razılaşmayan hayklar «problemləri»ni beynəlxalq və məhəlli məclislərə çıxarmaq səylərini davam etdirdilər. «Birləşmiş erməni heyəti» (A.Xatisyan, A.Aqaronyan, Q.Norandunkyan və b.) Lozanna konfransından «vahid və müstəqil Ermənistan» qazanmağa çalışdı. Bu olmadıqda isə «Milli ocaq»ın («Erməni yurdu»nun) qurulmasına yardım göstərilməsi istənildi [2, 317].

Yalnız Boğazlar problemi və rejimi ilə bağlı məsələlərə dair müzakirələrə dəvət alan SSRİ diplomatlarının Anadoluda «Erməni yurdu» qurulmasına münasibəti də maraq doğurur. SSRİ XXİK-i G.Çiçerinin «Birləşmiş Erməni heyəti»nin üzvləri və «Erməni Dostları Birliyi» adlı qurumla görüşləri, yazışmaları (25.1.1923 və digər) olduqca vacib bir məqamı - Sovetlərin uzaqgedən məq-

sədlərini aşkarlamağa imkan verir. Sovetlər SSRİ daxilində Ermənistan respublikasının mövcud olduğu halda, Moskvanın nəzarətindən tamamilə kənarda qalan Anadoluda yeni bir erməni dövlətinin yaradılmasına yol açacaq layihəni bəyənmədi. Bu cür mövqe gələcəkdə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürərək həmin torpaqların «Ermənistan SSR-ə birləşdirilmə» adı altında SSRİ-yə qatılması niyyətlərindən irəli gəlmişdi.

«Milli ocaq» («Erməni yurdu») layihəsini qəbul etməyən Sovet hökuməti SSRİ daxilində onlara qayğı göstərdi. Bu, müxtəlif istiqamətlərdə həyata keçirildi. Öncə Zəngəzurun bir (yuxarı və ya qərb) hissəsinin Ermənistan SSR-ə verilməsi («bağışlanması») «hüquqi əsaslarla rəsmiləşdirildi». Bunun ardınca da Azərbaycan SSR-də (Dağlıq Qarabağda) yaşayan ermənilərə muxtariyyət hüququ verildi. N.Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair»də (MK - Stalinə məktubda) yazırdı: «Dağlıq Qarabağ Mirzoyanın güclü təzyiqi altında muxtar vilayət elan olundu. Mənim vaxtımda bunu etmək mümkün olmurdu, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə ona görə ki, erməni kəndliləri özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni müəllimlərinin – daşnakların köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya ölkə komitəsindən keçirdi» [3, 271]. Beləliklə, Azərbaycan SSR daxilində Dağlıq Qarabağ Muxtar vilayəti (DQMV) təşkil olundu (7.VII.1923).

Həmin dövrdən Azərbaycan SSR daxilində öncə Naxçıvan SSR (VI.1923) və az sonra (9.II.1924) da muxtar SSR (Nax. MSSR) yaradıldı. Təşkili həmçinin ikitərəfli (Moskva - 1921) və dördtərəfli (Qars) beynəlxalq müqavilələrlə razılaşdırılan bu muxtariyyət bölgənin fərqli geosiyasi şəraiti ilə əlaqədardır. Ermənilərin və havadarlarının bu muxtariyyətə həm də mahalın torpaqlarının onlara ötürülməsinə imkan yaradacaq bir vasitə kimi yanaşmaları da istisna olunmur.

Ermənilərə sovet qayğısının digər və başlıca istiqamətlərindən birini də Qars müqaviləsinin şərtlərinin onların xeyrinə pozulması, yəni Ermənistan SSR-in ərazilərinin Azərbaycan torpaqları hesabına genişləndirilməsi, böyüməsi təşkil edir. Belə ki, müqavilə təsdiqləndikdən az sonra Dərələyəz əhalisinin Cüney Azərbaycanda və Naxçıvan mahalında qaçqın olmasından istifadə edildi; onun ərazisi Ermənistana qatıldı. Tezliklə Naxçıvan MSSR-in və bəzi qəzaların sərhədlərinə yenidən baxıldı.

Zaqafqaziya MİK RH-nin iclasında (1.1.1927; 2 saylı protokol, 5-ci bənd) respublikalararası sərhədlərdə: Mehri-Cəbrayıl qəzalarından 24 kəndin və həmin qurumun digər toplantısında (20.VI.1927; 18 saylı protokol, 1-ci bənd) isə Zəngəzur-Kürdüstan qəzalarının 1.065 desyatin ərazisinin bu və ya digərinə aidiyyatı məsələlərinin Ermənistanın xeyrinə olaraq baxıldı. Yenə də həmin qanunverici hakimiyyət orqanının M.Sxakayanın sədrliyi, Azərbaycan SSR-in nümayəndələrindən M.Bağırov, D.Bünyatzadə və b. iştirakı ilə keçirilən iclasında (18.II.1929; 3 saylı protokol) Mehridə rayon yaratmaq adı altında Zəngilanın üç kəndi (Nüvədi, Ernəzir, Tuğut) Ermənistana verildi (4). Zəngilanın «başçıları» bunu həmin kəndlərin rayon mərkəzindən xeyli aralı (uzaq) olmaları və müxtəlif səmtlərdə yerləşmələri üzündən onlarla əlaqənin

çətinliyi və s. ilə «əsaslandırmışdılar». 1929-1931-ci illərdə Nüvədi, Əldərə, Lehvaz, Astazur və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi hesabına həmin ərazilərdə Mehri rayonu yaradıldı.

Zaqafqaziya Sovetləri MİK RH-nin 1929-cu il 18 fevral tarixli iclasında (3 saylı protokol, 3-cü bənd), Qars müqaviləsinin əsas tərəflərindən olan Türkiyənin mövqeyi (rəyi) nəzərə alınmadan Naxçıvan mahalının 657 kv. km. sahəsi (Şərurun üç, Şahbuzun altı kəndi və Ordubad qəzasının Qərçivan sovetliyinə aid olan Mehri, Buğakər yaşayış məntəqələri, habelə Kilitin bir hissəsi) Ermənistana verildi [5]. Bu qurumun başqa bir iclasının (5.III.1938) qərarına əsasən isə Şərur mahalının Sədərək və Kərki kəndləri ətrafındakı bəzi ərazilər də Ermənistana keçdi. Həmin qərarı da Azərbaycanın «təmsilçiləri» olaraq onun MİK-inin Millətlər şöbəsinin müdiri İsaxanyan və İşlər idarəsinin başçısı Qadaqçyan imzalamışdılar [6].

Beləliklə, Zəngəzurun cənub-qərb hissəsinin də ermənilərə «bağışlanması» və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvan bölgəsindən ayrı salındı. Bununla da Quzey Azərbaycan parça-parça edildi, onunla qardaş Türkiyə arasında əlaqə pozuldu və torpaqlarımızın sonrakı qəsbləri-işğalına yeni zəmin yaradıldı.

SSRİ rəhbərliyi sovet dövləti və ictimai quruluşu üçün yaranan ən ağır dövrdə - İkinci dünya müharibəsi zamanı da ermənilərə himayəsini azaltmadı. Əksinə hətta Tehran konfransında SSRİ XXİK-i V.Molotov İ.Stalinlə məsləhətləşmələrdən sonra diaspora (lobbi) və kilsənin ermənilərin İrandan Ermənistan SSR-ə köçmələri məsələsinə dair müraciət-təkliflərinə müsbət yanaşdı. Bu iş İranda müharibə ilə bağlı yaranan ağır «maddi-iqtisadi durum»la əlaqələndirildi. Urmiyə ətrafında «kiçik erməni muxtariyyəti» qurulması ilə bağlı kilsə və müəyyən qüvvələr tərəfindən aparılan əkstəbliğata baxmayaraq hayklar köçürülmə xəbərini müsbət qarşıladılar. Keçirilən çoxlu mitinqlərdə İ.Stalinə və Sovet rəhbərliyinə təşəkkürlər ifadə olundu.

Böyük müharibədən sonrakı ilk vaxtlarda sovet ermənilərinin Şimali Azərbaycan torpaqlarına yiyələnmək cəhdləri daha da intensivləşdi. Şəraitə uyğun taktika seçildi, yəni «hüquqi-siyasi əsaslara»a, Sovetlər İttifaqının «maraq və mənafeləri»nə istinad olundu. Belə ki, Ermənistan K(b)P MK-nın Birinci katibi Q.Harutyunov İ.Stalinə müraciət edərək (XI.1945) DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsini «məsləhət gördü». Erməni lideri bunu vilayətin «iqtisadiyyatının qonşu respublika ilə sıx bağlılığı və ümumsovet mənafeləriylə» əsaslandırmağa çalışdı.

ÜK(b)P MK katiblərindən G.Malenkov vasitəsilə M.Bağırova göndərilən “erməni müraciəti”nə ikincinin cavabı (mövqeyi) Mərkəz və İrəvan üçün «sovqat» oldu. O, Şuşa çıxılmaqla, Yuxarı Qarabağın Ermənistan SSR-ə keçməsinə etiraz etmədiyini bildirdi. Ancaq Ermənistan və Gürcüstan müttəfiq, habelə Dağıstan muxtar respublikalarının Azərbaycan SSR ilə həmhüdud olan və əsasən azərbaycanlılar yaşayan, tarixən də ölkəmizə mənsub ərazilərinin (söhbət Zəngəzur, Borçalı, Dərbənd və s. gedir - **İ.M.**) qaytarılmasını istədi.

«Yersiz daxili siyasi qalmaqala» əsla ehtiyac duymayan rəsmi Moskva məsələni böyütmədi.

Azərbaycan torpaqlarına «siyasi-hüquqi əsaslar»la sahib çıxmağın hələlik alınmaması taktikanın əvəzlənməsi ilə nəticələndi. Bu dəfə onlar Azərbaycanın tarixi coğrafiyasında zaman-zaman yürütdükləri «etnik təmizləmə» («yandırılmış torpaq») taktikasına üstünlük verdilər. Qərbi Azərbaycanın (Ermənistan SSR-in) türk-müsəlman əhalisinin köçürülməsi planları cızıldı. Buna görə də Tehranda bəyənilən və razılaşdırılan «ermənilərin İrandan köçürülməsi proqramı»na əlavələr edildi. İrandan köçürülənlərin Ermənistanda məskunlaşmaları üçün Qərbi Azərbaycanın türk-müsəlman əhalisinin deportasiyası qənaətinə gəlindi. Həmin qənaət «sovet iqtisadiyyatının tərəqqisi tələbatı» ilə əlaqələndirildi. Azərbaycan SSR-in Kür-Araz ovalığında pambıqçılığın inkişafı üçün «axtarılan» işçi qüvvəsi Ermənistanda «tapıldı». Qərbi Azərbaycanın əsasən dağlıq ərazilərində yaşayan maldar əhalinin Kür-Araz ovalığında (aran rayonlarda) pambıqçılıqla məşğul olması «məsləhəti» verildi.

SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqına» qərar (23.XII. 1947; №4083) qəbul etdi [7]. Onun digər - birinciyə əlavə - bir qərarı (10.III.1948; №754) ilə də xüsusi müvafiq tədbirlər müəyyənləşdirildi (8). Həmin qərarlara əsasən 1948-1953-cü illərdə təxminən 150 min azərbaycanlı tarixi Vətənindən kütləvi surətdə zorakılıqla məlum dislokasiya yerlərinə köçürüldü. Onların bir hissəsinin dağlıq ərazilərdə (Yuxarı Qarabağda, Qubada və s. yerlərdə) məskunlaşdırılmasına yönəlik səylərin qarşısı dərhal və qətiyyətlə alındı. Ən başlıcası da 4083 saylı qərarın 11-ci maddəsinə əsasən azərbaycanlı əhalinin tərk etdiyi ərazilərə xaricdən gələn ermənilərin yerləşdirilməsi işi sistemli qaydada təşkil olundu.

Bu deportasiya ilə paralel surətdə A.Mikoyanın təşəbbüsü və rəsmi Moskvanın himayəsi ilə «gizli» «Qarabağ hərəkatı» meydana gəldi. Ona rəhbərlik üçün yenə də «məxfi» şəkildə «Qarabağ komitəsi» yaradıldı. İ.Stalinin vəfatından (III. 1953) sonra SSRİ rəhbərliyində mövqeyi daha da möhkəmlənən - İliçdən (V.Lenindən) – İliçə (L.Brejnevə) qədər gəlib çıxan, «1918-ci ildən qalma məşhur» - A.Mikoyan partiya və sovet dairələrindəki ermənipərəstlərlə birləşib DQMV-nin Azərbaycandan qoparılmasına yönəlik səylər göstərdi. Paralel surətdə ABŞ ermənilərinin bayram münasibətilə - Ermənistan SSR-nin 40 illiyi ilə bağlı Naxçıvanın ona «hədiyyə edilməsi» təklifi (1960) təşkil olundu. Yeri gəlmişkən, AK(b)P MK-nın ideoloji işlər üzrə katibi N.Hacıyev bunun yolverilməz və mümkünsüz olduğunu əsaslandıran mükəmməl bir sənəd hazırlamışdı.

SSRİ-də erməni-azərbaycanlı münasibətləri və respublikalararası ərazi-sərhəd dəyişiklikləri məsələsi hətta 1960-cı ildə Sov. İKP MK Siyasi Bürosunun müzakirəsinə də çıxarıldı. Sovetlərin o dövrki rəhbəri N.Xruşşov Azərbaycanın mövqeyini dəstəklədi. Bu isə əslən ukraynalı olan Birinci katibin (Nazirlər Soveti sədrinin) lap yaxınlarda (19.II.1954) Ukraynaya verilən Krım

vilayətinin yenidən Rusiyaya qaytarılması tələbləri ilə üzləşmək qayğısı və qorxusundan irəli gəlmişdi (Yoxsa onun İrəvanda olarkən ermənilərə Azərbaycan torpaqlarından «yeni pay» vədinə əməl edəcəyi gözlənilən iş idi).

Sovet cəmiyyətindəki «mülayimləşmə» prosesi erməniləri Azərbaycan torpaqlarına yeni qəsdlərə ruhlandırdı. 1965-ci il bu işdə «mühüm bir mərhələ» oldu. Qaniçən quldur Andranikin anadan olmasının 100 illiyinin SSRİ-nin paytaxtında və digər böyük şəhərlərində bütün müttəfiq respublikaların rəsmilərinin iştirakı ilə təntənəli surətdə qeyd olunması (I.1965), ona dövlət səviyyəsində «Xalq qəhrəmanı» statusunun verilməsi, ən başlıcası da «erməni soyqırımı»nın 50 sənədən sonra A.Mikoyanın səyi ilə rəsmən «anılması» və s. «yeni dönəm»in ilk böyük tədbirləri sayıla bilər.

Ermənilərin «Naxçıvan komitəsi» yaradaraq bu tarixi mahalımıza qarşı iddialarını gücləndirdikləri bir vaxtda Azərbaycanın elmi-ziyalı mühiti»nə olduqca diletant və bəsit düşüncə hakim kəsilmişdi: «Naxçıvana muxtariyyət verən Lenin milli siyasəti onun muxtariyyətini qoruyacaqdır!». Habelə torpaqlarımızın Ermənistana verilməsinə dair vaxtilə çıxarılan qərarlar (1927, 1929, 1938) Azərbaycanın partiya (26.XI.1968) - Sovet (7.V.1969) «rəhbərliyi» tərəfindən təsdiqləndi. 80-ci illərin ortalarında da Qazax, Gədəbəy, Ordubad və s. rayonların ərazilərindən otlaq, əkin yeri və digər adlar altında ermənilərə «torpaq payları» verildi.

Sovet Ermənistanı Azərbaycanın quzeyi və güneyi ilə əlaqədar planlarını gerçəkləşdirərkən qriqorian kilsəsindən və erməni diasporasından (lobbisindən) hərtərəfli yardımlar almışdır. İkinci dünya savaşının başlanması onlar tərəfindən geniş perspektivlərin və taleyüklü uğurların başlanğıcı kimi qiymətləndirildi. Sovet hərbi kəşfiyyatının məlumatlarında bildirilirdi ki, ermənilər «Qarsdan Təbrizəcən - Sovet Ermənistanı da daxil olmaqla - «Böyük Ermənistan» yaratmaq haqqında fikirləşirlər. İrana sovet hərbi müdaxiləsinin ilk günlərində xüsusi əməliyyat qrupu ilə oraya göndərilən Ermənistan SSR XDİK-in müavini Gözəlyan erməni rəhbərliyinin gizli niyyətlərini belə ifadə etmişdi: Sovet ordusunun tutduğu «İran ərazisi» Azərbaycanla Ermənistan arasında təsir dairələrinə bölünməlidir. SSRİ-nin Avropada müharibəni udaraq Orta Şərqdə hərbi ekspansiyaya başlamaq planları erməni diasporası və kilsəsini xeyli fəallaşdırdı. Belə bir şəraitdə «Böyük Ermənistan»la sərhəddə Urmiyə ətrafında «kiçik muxtariyyət»ə nail olmaq istəyi ortaya çıxdı. Bu məqsədlə də İran ermənilərinin Urmiyəyə «köç»ü təşkil olundu. Ermənilərin Urmiyə ətrafında «kiçik muxtariyyət» əldə etmək planları ilə bağlı maraqlı və vacib bir məqam da sovet diplomatlarının SSRİ XXİK-dəki qeyri-rəsmi müzakirəsində (I.1946) açıqlanmışdı [9, 228-229].

Azərbaycan SSR XXİK-in müavini Ə.Əlizadə, SSRİ XXİK-i Orta Şərq şöbəsinin müdir əvəzi S.Siveç və Ermənistan SSR XXİK-i Karapetyan arasındakı «nahar yeməyi diplomatiyası»nda sonuncu bunları bildirmişdi: Ermənilərin xaricdən, o cümlədən də İrandan Ermənistana köçürülməsi planlaşdırılır; köçürülmə məsələsi ancaq Cənubi İran ermənilərinə aiddir; biz Şimali

İran (Güney Azərbaycan - **İ.M.**) ermənilərinin də Sovet Ermənistanına köçürülməsinə icazə verməyəcəyik.

Erməni diasporu və kilsəsini ruhlandıran hadisələrdən biri də hələ G.Çiçerinin Lozanna konfransı zamanı nəzərdə tutduğu planın işə düşməsi oldu. Belə ki, SSRİ böyük hərbin sonuna yaxın Türkiyə ilə münasibətlərini nəzərdən keçirdi. Erməni diasporu xaricdə (ABŞ-da) və qriqoryan (Eçmiədzin) kilsəsi isə SSRİ daxilində hərəkətə keçdilər. Diaspor (lobbi) – Amerika Erməniləri Milli Şurası San-Fransisko konfransına (IV-VI.1945) bəyannamə təqdim etdi. Eçmiədzin Milli Kilsə yığıncağı isə İ.Stalinə teleqram yolladı. Bir-birilərindən çox uzaq məsafələrdə hazırlanmalarına baxmayaraq onların məzmunu (mətni) təxminən eyni idi. Bəyannamə və teleqramda «erməni məsələsi»nin həlli – «Ata torpaqlarının qaytarılması» istənilirdi. Konkret olaraq isə Türkiyənin Şərq vilayətlərinin Ermənistan SSR-ə birləşdirilməsi və «xaricdəki ermənilərin öz doğma ölkələrinə qayıtmaları»na şərait yaradılması xahiş edilirdi.

Dünyadakı erməni qurumlarının liderləri havadarlarının təmsilçiləri ilə birlikdə İrəvana toplaşdılar. Eçmiədzin kilsəsinə yeni katolikos seçkisi bəhanəsi ilə düzənlənən (VI.1945) bu toplantıda siyasətə – «erməni məsələsi»nə geniş yer verildi. SİTA «erməni məsələsi» ilə bağlı xüsusi Məlumat yaydı. Ermənistan SSR mətbuatında Türkiyəyə ərazi iddialarından bəhs edən yazılar dərc olundu. Təbrizdəki daşnak mətbuatı «erməni məsələsi» ətrafındakı kilsə-diaspor və sovet fəallığının səbəblərini açıqlayan çoxlu məqalələri çap elədi. Habelə erməni din adamları, zənginlər və siyasi liderlər də müəyyən məqamları açıqlayan mülahizələr söylədilər. Bunları və müvafiq mətbuat dəyərləndirmələrini belə ümumiləşdirmək olar:

**1**. Bu dövrdə «erməni məsələsi»nin uğurlu həllində Türkiyəyə qarşı ərazi iddialarının təmin olunması və Azərbaycanın torpaqlarının qəsb edilməsi işində «SSRİ amili»nə üstünlük verilməsi. Təbrizdəki erməni kilsəsinin başçısı N.Məlik-Tangiyan demişdi: «Biz Moskvanın hesabına sərhədlərimizin genişləndirilməsinin və xaricdən Ermənistana qayıdışın şahidiyik. İndi artıq bunun vaxtıdır, bir neçə ildən sonra xarici həyat tərzinə alışan yeni nəsil yaranar və bu mümkünsüz olardı. Stalinə teleqram vurulması çox ağıllı fikirdir. Bizim üçün nə edəcəksə, bu adam edəcək».

**2.** Sovetlərin «erməni məsələsi»nin həllinə girişməkdə özəl maraqlara malik olması. Burada iki məqam vurğulanırdı:

**a)** Rusiyanın Şərq siyasətinin gerçəkləşdirilməsi, SSRİ-nin Orta Şərqdə hərbi ekspansiya planları və bu baxımdan da Türkiyəyə ermənilər və gürcülər vasitəsilə ərazi iddiaları sürərək onun torpaqlarına yiyələnməsi;

**b)** «erməni məsələsi»nin indiki zamanda həm də Bakı neft sənayesinin təhlükəsizliyi ilə sıx bağlı olması (Yeri gəlmişkən, az sonra İ.Stalin də amerikan səfiri ilə görüşündə (4.IV.1946) Bakı neft rayonu ilə əlaqədar «rahatsızlığı»nı dilə gətirmişdi). İran ermənilərindən H.Ovanesyan bildirirdi ki, «Bakı neftinin təhlükəsizliyi sərhədlərin Leninakandan bir qədər o tərəfə çəkilməsini

tələb edir. İndiki anda «erməni məsələsi»nin qaldırılması bu zərurətlə bağlıdır. Sovetlər Bakının təhlükəsizliyi məsələsində həddindən artıq maraqlıdırlar». Bakı neft rayonunun «müdafiəsi məsələsi» SSRi-nin Orta Şərqə yönəlik hərbi ekspansiyasını «əsaslandırmaq» üçün ortaya atılan «dəlillər»dən biri idi. Ermənilər də bunu özlərinə lazım olan səpkidə şərh edirdilər).

**3.** Erməni kilsəsi və diasporunun (lobbisinin) «milli davası» - tələblərinin Sovetlər tərəfindən dəstəklənməsi.

«Erməni məsələsi» ətrafındakı o dövrki kilsə-diaspora fəallaşmasının Moskvanın dirijorluğu ilə baş verməsi göz önündə idi. Görülən işlərin – edilən hərəkətlərin SSRİ rəhbərliyi ilə razılaşdırılması heç kəsdə şübhə doğurmurdu. Buna görə də, ermənilər V.Molotovun Türkiyəyə məlum notasına da nikbin münasibət bəsləyirdilər: «Əgər Moskvanın razılığı olmasaydı, Amerika ermənilərinin bəyannaməsi də meydana çıxa bilməzdi».

SSRİ-Türkiyə münasibətlərinin perspektivlərinə dair erməni proqnozları özünü çox da gözlətmədi və doğrultdu. Belə ki, Sovet diplomatiyası «erməni məsələsi» (tələbləri) ətrafında lazımi ictimai rəyi formalaşdırdıqdan və xaricdəki, SSRİ-dəki «əzabkeş xalq»ı yetərincə fəallaşdırdıqdan sonra Türkiyə ilə olan «ərazi-sərhəd problemləri»nin tənzimlənməsinə girişdi. "Böyük üçlük"ün XİN-lərinin Moskva müşavirəsindən (XII.1945) SSRİ-Türkiyə sərhədlərində dəyişikliklər edilməsi, yəni Qars və Ərdəhanın Ermənistana, Trabzonla çevrəsinin isə Gürcüstana qaytarılması (?! - **İ.M.**) tələb edildi. Rəsmi Ankaranın sərt etirazı ilə üzləşən Sovet rəhbərliyi Trabzon, Qars və Ərdəhana dair «gürcü-erməni tələbləri»ni 1946-cı ilin əvvəllərində daha da rəsmiləşdirdi.

Yenidən fəallaşan «Daşnaksütyun» partiyası özünün XIV konqresində (1947) Azərbaycana dair işğalçılıq niyyətlərini bir daha açıqladı. M.Bağırov bu toplantı və orada səsləndirilən çağırışlarla bağlı İ.Stalinə xüsusi məktubla müraciət etdi. 1967-ci ildə DQMV-də azərbaycanlı əhaliyə qarşı törədilən zorakılıq hərəkətlərində daxildəki qüvvələrlə yanaşı xaricdən olan təsirlər də mühüm rol oynadı. Dünya erməniləri din xadimlərinin Eçmiədzin toplantısında (1969) kilsənin qüvvətləndirilməsi yolları adı altında Türkiyəyə və Azərbaycana qarşı ərazi iddialarının reallaşdırılması məsələləri nəzərdən keçirildi. Sovet rəhbərliyinin buna sərt münasibəti əsla hiss olunmadı.

Ermənilər yeni sovet lideri «M.Qorbaçovun yenidənqurması»nı da özlərinin tarixi maraqlarının gerçəkləşdirilməsi üçün münasib dövr hesab etdilər. Xaricdəki güclərin imkanları SSRİdaxili səylərlə birləşdirildi. «Daşnaksütyun»un XXIII qurultayında (Afina, XII.1985) Azərbaycana qarşı ərazi iddialarına yeni rəvac verildi. «Xalqların tribunalı» («Xalqlar dövlətlərə qarşı») təşkilatının Sarbonn və s. toplantılarından yararlanılmasına yönəlik səylər nəticəsiz oldu.

BMT Komitəsinin - Uiteykerin «Genosid halları» məruzəsinin BM-in XXXVIII sessiyasında (VIII. 1985) müzakirəsi zamanı «erməni məsələsi»nin də «yada salınması»na cəhdlər göstərildi. Eçmiədzin katolikosu I Vazgenin ABŞ-dakı görüşlərində (1987) «erməni soyqırımı» məsələsi önə çəkildi. Avropa Parlamenti tərəfindən «erməni soyqırımı qurbanları»nın xatirə gününün təsis edilməsinə nail

olundu (VI. 1987). ABŞ senatoru B.Doul və b. layihələri ortaya çıxdı.

SSRİ-də azərbaycanlılarla ermənilər arasında vaxtaşırı özünü göstərən gərginlik 80-ci illərin ortalarında daha da artdı (Azərbaycan SSR DTK-nın hələ xeyli əvvəl (24.VIII.1946) hazırladığı «DQMV-nin erməni ziyalılarının bəzi hissələri arasında mənfi əhval-ruhiyyə haqqında»kı arayışda göstərilənlər öz «bəhrələri»ni verdi. Öncə ideoloji-təbliğatı müstəvidə yaşanan bu gərginlik az sonra digər sahələrə də sirayət etdi. Sovet rəhbərliyinin önləyici tədbirləri Ermənistanda ideoloji işdəki «qüsurlar»ı qeyd etməkdən o tərəfə getmədi. Z.Balayanın «Ocaq» kitabındakı tarixi ağ yalanlar və böhtanlar, S.Kapitukyanın əsassız iddiaları və digər çoxlu ideoloji-mənəvi təxribat (terror) halları Azərbaycan rəhbərliyi səviyyəsində cavabsız qaldı. Əksinə Azərbaycan SSR EA-nın əməkdaşı İ.Qəmbərovun Z.Balayanın «Ocaq»ına cavab olan sanballı tədqiqatının yayılmasına qətiyyən imkan verilmədi.

Erməni-sovet akademiki Aqanbekyanın Parisdə «Humanite»yə müsahibəsində (18.XI.1987) söylədiyi «Qarabağ Azərbaycandan çox Ermənistanla bağlıdır» tezisi ermənilərlə azərbaycanlılar arasında yeni münaqişənin yaranmasına təkan vuran hadisələrdən oldu. Sov. İKP MK-nın Baş katibi M.Qorbaçovun SSRİ-də «milli məsələnin həllində təəssüfləndirici ləngimə»nin mövcudluğu baxışı da ermənilərin «Qarabağ davası»na yaşıl işıq yandırdı. Moskvadakı imkanlı erməni diasporu və lobbisi fəallaşdı. DQMV-də «Miatsum» («Birləşmə») hərəkatı genişləndi. «Krunk» («Durna») təşkilatı yarandı. A.Mikoyanın himayəsi ilə hələ 40-cı illərin sonlarında yaradılan «Qarabağ komitəsi» fəallaşdı. DQMV sovetinin sessiyası vilayətin Ermənistana birləşməsi barədə qərar (20.II.1988) çıxardı. Az sonra da Ermənistan SSR-in Ali Soveti analoji qərar qəbul etdi. Bütün bunlarsa Bakıda kütləvi tələbə etirazları və digər nümayişlərlə qarşılandı. M.Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə - xalqlarına müraciəti məsələlərə ədalətsiz yanaşması üzündən təsirsiz qaldı.

SSRİ DTK-sı və sovet-diaspor ermənilərinin birgə səyləri ilə Sumqayıt fitnəkarlığı (28.II.1988) törədildi. «Sumqayıt hadisəsi» əslində ermənilərin Azərbaycan torpaqlarına yeni qəsdlərinə ideoloji-təbliğat hazırlığı idi. Ermənilərin 1988-ci ildəki fitnəkar və bəd əməlləri tarixi «Meydan hərəkatı» (17.XI-5.XII.1988) ilə cavablandırıldı. İlin sonunda Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın dəhşətli soyqırım halları ilə müşayiət olunan kütləvi deportasiyası həyata keçirildi. DQMV-də yaşayan 187,8 min nəfər əhalinin 40,3 mini (1989-cu il sovet əhali siyahıyaalınmasının yekunlarına görə), yəni azərbaycanlılar «girov» saxlanıldı.

Vilayətin Azərbaycandan qoparılması prosesi sürətləndirildi. Həm də bu işin «hüquqi bazası» yaradıldı. Ermənipərəst A.Volskinin («Artsaxski»nin) başçılığı ilə DQMV Xüsusi İdarəetmə Komitəsi təşkil olundu (12.I.1989). Sovet «güc nazirlikləri»nin «Qasırğa» əməliyyatı – Bakıda və digər ərazilərimizdə törədilən qanlı yanvar hadisələri (l9-20.I.1990) ermənilərin Dağlıq Qarabağda və digər yerlərdəki silahlı pozuculuq hərəkətlərinə yaxşı şərait yaratdı. 1991-ci ilin sentyabrında qondarma «DQR» elan olundu. Bunun ardınca da

Azərbaycan rəhbərliyi xalqın tələbi ilə DQMV-ni ləğv etdi (26.XI.1991). 80-ci illərin ortaları - 90-cı illərin lap əvvəlində Azərbaycana rəhbərlik edənlərin (K.Bağırov, Ə.Vəzirov, A.Mütəllibov) SSRİ-də gedən siyasi proseslərin mahiyyəti və perspektivlərini, onların ətrafında yürüdülən beynəlxalq siyasətin məqsədlərini yetərincə obyektiv dəyərləndirə bilməmələri ölkəmizin durumunu xeyli ağırlaşdırdı.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası MDTA: f. 28, siy. 1, iş 234, v. 26.
2. Uras E. Tarihte Ermeniler ve Ermeni meselesi. İstanbul: Belge Yayınları, 1987, 798 s.
3. История Азербайджана по документам и публикациям / Под редакцией академика З.М.Буниятова. Баку: Элм, 1990, 384 с.
4. Azərbaycan Respublikası MDTA: f. 379, siy. 1, iş 2176.
5. Azərbaycan Respublikası MDTA: f. 379, siy. 1, iş 2176.
6. Azərbaycan Respublikası MDTA: f. 379, siy. 1, iş 7429, 7345.
7. Багиров М., Вердиева Х. В поисках истины… Лицо армянства. Баку: MBM, 2011, 607 с.
8. Azərbaycan Respublikası PİİSSA: f. 1, siy. 33, iş 227, vv. 19-19 arx.
9. Гасанлы Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.). М.: Герои Отечества, 2006, 560 с.


## ПРОАРМЯНСКАЯ ПОЛИТИКА РУКОВОДСТВА СССР: ЦЕЛИ И ПОСЛЕДСТВИЯ


**И.М.МУСА**


### РЕЗЮМЕ


В статье исследованы некоторые важные моменты, связанные с ведущими направлениями проармянской политики руководства СССР. Основное внимание уделено исследованию проблем Азербайджана (территориальные потери, депортации, беженцы и др.), создавшиеся в результате проармянской позиции руководителей КПСС и Советского государства.

В статье также проанализированы планы и процесс депортации тюркско-мусульманского населения Западного Азербайджана (Армянской ССР). Далее в ней отражены вопросы поддержки советской дипломатией планов армян по созданию «маленькой автономии» вокруг озера Урмия.



**Ключевые слова:** советский, армянин, территориальные потери, депортация, конфликт

**PRO-ARMENIAN POLICY OF THE USSR GOVERNMENT:
THE TARGETS AND CONSEQUENCES**

**I.M.MUSA**

**SUMMARY**

The article analyzes some important issues of the pro-Armenian policy of the USSR leaders. Main attention was focused on the investtigation of the problem of Azerbaijan (loss of territories, deportation, refugees etc.) appeared as a result of the pro-Armenian position of the USSR leaders and the Soviet State.

There as well are analysed the plans and the process of deportation of the Turkic – Muslim population of Western Azerbaijan (Armenian SSR). The article covers such issues as the assistance of the Soviet diplomacy to the realization of Armenia's "small autonomy" plan around the lake of Urmia as well.

**Key words**: Soviet, Armenian, loss of territories, deportation, conflict